


Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 96 (21.248)

15 may 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın mayın 14-də rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın məhdud tərkibdə görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

* * *

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın iştirakı ilə Azərbaycan-Vyetnam sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq mətbuata birgə bəyanatlarla çıxış ediblər.

* * *

Mayın 14-də Bakıda Azərbaycan-Vyetnam Biznes Forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq biznes forumda iştirak ediblər.

Dövlət başçıları forumda çıxış ediblər.



# Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir

Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəri müasir şəhərsalma prinsipləri əsasında qurulur. İstifadəyə verilən sosial obyektlər, inzibati və ictimai yaşayış binaları şəhərin memarlıq quruluşuna yeni görkəm verir. Artıq qədim və müasir memarlıq elementlərinin sintezi əsasında aparılan kompleks quruculuq işləri şəhərin görkəmini tamamilə dəyişmişdir. Bu işlər çərçivəsində insanların rahat mənzillərdə yaşaması, xüsusilə gənc ailələrin mənzil təminatı məsələsi xüsusilə diqqətdə saxlanılır, müasir yaşayış binaları tikilərək istifadəyə verilir.





Mayın 14-də Naxçıvan şəhərinin “İstiqlal” küçəsində inşa olunan 95 nömrəli yeni ictimai yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binanın açılışını bildirən lenti kəsmişdir.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək demişdir ki, Naxçıvan şəhərində infrastrukturun digər sahələri ilə yanaşı, mənzil tikinti sektoru da günbəgün inkişaf etdirilir, sakinlərin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Son illər aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Naxçıvan şəhərində yeni yaşayış kompleksləri salınmış, müasir yaşayış binaları tikilmiş, mövcud yaşayış binaları əsaslı şəkildə yenidən qurulmuşdur.

Sakin Azad Əliyev demişdir ki, Naxçıvan şəhərində müasir yaşayış binasının istifadəyə verilməsi gənclər tərəfindən razılıqla qarşılanır. Bu gün yeni binada mənzil sahibi olan hər bir ailə sevinc içərisindədir. Çünki gənc ailələrin mənzil sahibi olması onların sosial problemlərinin həlli istiqamətində atılan ən mühüm addımdır. Azad Əliyev göstərilən qayğıya görə gənc ailələr adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: “Bu gün yeni mənzil sahibi olanların həyatında əlamətdar gündür. Çünki mənzil hər bir insan həyatında və onun rahatlığının təmin olunmasında başlıca amildir. Müasir dizayna və bütün kommunal şəraitə malik olan yeni yaşayış binasının istifadəyə verilməsi də məhz bu məqsədə xidmət edir”.

Ali Məclisin Sədri demişdir: “Gənclər hər bir ölkənin gələcəyidir. Ona görə də ölkəmizdə dövlət-gənclər siyasəti uğurla həyata keçirilir, gənclərin sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması diqqət mərkəzində saxlanılır. Bu yolun əsası ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə qoyulmuş və zaman keçdikcə öz bəhrəsini vermişdir. Ötən əsrin 70-ci illərində ulu öndərin ölkəmizdə həyata keçirdiyi tədbirlər nəticəsində yetişən gənc nəsil artıq 90-cı illərdə müstəqil Azərbaycanın həyatında fəal iştirakçılara çevrildilər. Müstəqillik dövründə yetişən gənclik isə ölkəmizin gələcəyinin möhkəmlənməsində iştirak edəcəklər. Bu mənada gənc nəsil üçün yaradılan şərait, gənclərə göstərilən qayğı ölkəmizin gələcəyinə göstərilən qayğıdır”.

Ali Məclisin Sədri demişdir: “Dövlət vəsaiti hesabına tikilən yaşayış binasındakı mənzillərin ipoteka kreditindən istifadə edilməklə gənc ailələrə verilməsi ölkəmizdə gənclər siyasətinin daha bir ifadəsidir. Gənclərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada gənclərə göstərilən qayğı onların mənzil şəraitinin yaxşılaşdırılması ilə məhdudlaşmır. Eyni zamanda gənclərin hərtərəfli təhsil alması, hüquqlarının qorunması, işlə təmin olunması, ən əsası isə sabitlik şəraitində yaşamaları istiqamətində də ardıcıl tədbirlər görülür, ölkəmizin gələcəyinin təminatçıları olan layiqli vətəndaşlar yetişdirilir”.

Ali Məclisin Sədri gəncləri yeni mənzil sahibi olmaları münasibətilə təbrik etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 1 girişi olan bina zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarətdir. Binada 6-sı birotaqlı, 12-si ikiotaqlı, 12-si isə üçotaqlı olmaqla, 30 mənzil vardır. Birotaqlı mənzillərin sahəsi 36, ikiotaqlı mənzillərin sahəsi 69, üçotaqlı mənzillərin sahəsi isə 78 kvadratmetrdir. Mənzillər müasir kommunal şəraitlə təmin olunmuş, daimi su xətti və optik kabel çəkilmiş, mərkəzi antena sistemi yaradılmışdır.

Binada lift quraşdırılmış, həyətdə əyləncə və istirahət guşələri istifadəyə verilmişdir.

* * *

Naxçıvan şəhərinin “İstiqlal” küçəsindəki 87 və 91 nömrəli yaşayış binalarında yenidənqurma işləri aparılmışdır.

Həmin gün Ali Məclisin Sədri bu binalarda aparılan işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, hər iki bina 4 mərtəbədən ibarətdir. 87 nömrəli yaşayış binasında 34, 91 nömrəli binada isə 35 mənzil vardır. Əvvəllər bu yaşayış binalarında lazımi kommunal-məişət şəraiti yox idi. Yenidənqurma işləri zamanı binaların mühəndis-kommunikasiya sistemləri yenilənmiş, qapı və pəncərələri dəyişdirilmiş, dəhlizlər təmir olunmuş, mənzillərin sahəsi genişləndirilərək sakinlərin rahatlığı təmin edilmişdir.

Hər iki binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

Ali Məclisin Sədri Naxçıvan şəhərindəki mövcud ictimai yaşayış binalarında yenidənqurma işlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.



Ardı 2-ci səhifədə

# Naxçıvan şəhərində Atıcılıq və əyləncə mərkəzi fəaliyyətə başlamışdır





Mayın 14-də Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının Atıcılıq və əyləncə mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədri Asəf Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada gənclərin atıcılıq idman növünə marağının artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının fəaliyyətinin gücləndirilməsi, yeni atıcılıq mərkəzlərinin və klublarının istifadəyə verilməsi bu sahədə görülən işlərin miqyasını xeyli genişləndirmişdir. Bu gün istifadəyə verilən Atıcılıq və əyləncə mərkəzi də gənclərin atıcılıq idman növlərinə marağının artırılmasında və asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayacaqdır. Asəf Məmmədov yaradılan şəraitə görə idmançılar adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Atıcılıq və əyləncə mərkəzinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: "Atıcılıq mərkəzlərinin yaradılması ölkəmizdə gənclərin asudə vaxtının səmərəli təşkili ilə yanaşı, həm də onların orduya hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada Atıcılıq Federasiyasının fəaliyyət göstərməsi bu cür mərkəzlərin yaradılmasına imkan verir. Bu gün ilk belə mərkəz Naxçıvan şəhərində istifadəyə verilir. Rayon mərkəzlərində də müasir atıcılıq və əyləncə mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur".

Açılışı bildirən lent kəsildikdən sonra məlumat verilmişdir ki, burada gənclərin asudə vaxtının təşkili və atıcılıq idman növü ilə məşğul olması üçün hərtərəfli şərait vardır. Mərkəz interaktiv atış-təlim zalı, kafe və oyun salonundan ibarətdir. Oyun salonunda quraşdırılan 6 aparat vasitəsilə gənclər müxtəlif idman növləri ilə virtual məşğul ola biləcəklər. Bu da gənclərin istirahətinin səmərəli təşkili ilə yanaşı, həm də onların psixoloji hazırlıq səviyyələrinin yüksəldilməsi və əqli inkişafı baxımından əhəmiyyətlidir.

İnteraktiv atış-təlim zalında ən müasir avadanlıqlar quraşdırılmış, 5 atış nöqtəsi yaradılmışdır. Pnevmatik tüfəng və tapançadan atəş açmaqla monitorda əks olunan hədəfləri dəqiq vurmaq mümkündür. Atış başa çatdıqdan dərhal sonra nəticələr monitorda əks olunur. Real görüntülər üzərində qurulan interaktiv təlim sistemi gənclərin atıcılıq idman növünə olan marağını daha artıracaq, bu sahədə peşəkar idmançıların yetişməsinə stimul verəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Silahlı Qüvvələrinin üçüncü ordu komandanı ilə görüşmüşdür



Mayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində iştirak etmək üçün Naxçıvana gələn Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar ilə görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri birgə hərbi təlimlərin keçirilməsini hər iki ölkənin gücünün, eyni zamanda Azərbaycan və Türkiyə orduları arasındakı birliyin göstəricisi kimi dəyərləndirmişdir.

Muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirləri diqqətə çatdıran Ali Məclisin Sədri demişdir ki, düşmən dövlətlə sərhəddə yerləşməsi və blokada şəraitində yaşaması Naxçıvanda ordu quruculuğu tədbirlərini zərurətə çevirmişdir. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən ordu birləşmə və hissələri torpaqlarımızın müdafiəsini etibarlı təşkil etməklə yanaşı, istənilən döyüş tapşırığını da uğurla yerinə yetirmək əzmindədir.

Ali Məclisin Sədri Türkiyə Silahlı Qüvvələrinin muxtar respublikada ordu quruculuğuna göstərdiyi dəstəyə görə təşəkkürünü bildirmişdir.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar səmimi qəbula görə minnətdarlıq etmiş, Naxçıvanda keçirilən birgə hərbi təlimin hər iki ölkə arasında hərbi sahədə əməkdaşlıq üçün mühüm əhəmiyyət daşıdığını bildirmişdir. Naxçıvanda bütün sahələrin inkişafının məmnunluq doğurduğunu qeyd edən Ümit Dündar ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin də qürurverici olduğunu vurğulamışdır.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Ərşən görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Bələdiyyələrlə bağlı növbəti seminar-müşavirə Babək rayonunda keçirilib



"Mövcud qanunvericiliyə görə, yerli özünüidarə vətəndaşların fəaliyyətlərinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək, əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. İlk bələdiyyə seçkiləri ərəfəsində xalqımızın ümummilli lideri Heydər Əliyev xalqa müraciətində deyib ki, yerli idarəetmə orqanları yerlərdə onların səlahiyyətləri çərçivəsində, qanun çərçivəsində çox işlər görə bilərlər. Beləliklə, onlar dövlətin gördüyü işlərin böyük bir hissəsini öz üzərlərinə götürəcəklər, dövlətin yükünü müəyyən qədər yüngülləşdirəcəklər".

Bu sözləri mayın 14-də Babək rayonunda "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda keçirilən seminar-müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev deyib.

Bildirilib ki, son illərdə muxtar respublikada bütün sahələrdə olduğu kimi, yerli özünüidarə sahəsində də ciddi irəliləyişlər olub. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Babək rayonunda da bələdiyyəçilik ənənəsi formalaşdırılıb, insanların iqtisadi, sosial və yerli əhəmiyyətli digər məsələlərlə bağlı bu quruma müraciətləri çoxalıb, inamı artıb. Rayon bələdiyyələri dövlətimizin onlar üçün yaratdığı şəraitdən səmərəli istifadə etməli, göstərilən dövlət qayğısına əməli işləri ilə cavab verməlidirlər. Babək Rayon İcra Hakimiyyəti istənilən məsələnin həllində bu qurumlara köməklik göstərməyə və əməkdaşlıq etməyə hazırdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, nazirlik tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətlərinə inzibati nəzarətin səmərəli təsiri istiqamətində işlər mütəmadi olaraq davam etdirilir. Bunun nəticəsi olaraq, inzibati nəzarət qaydasında baxılan bələdiyyə aktlarının sayında artım müşahidə olunub, bu sahədə hüquq pozuntularının aradan qaldırılması xüsusi diqqət mərkəzində saxlanılıb, bələdiyyələrə zəruri metodik köməklik göstərilib. Qeyd olunanlardan əlavə, qanunvericiliyin tələblərindən irəli gələn vəzifələrin düzgün və dürüst yerinə yetirilməsi üçün "Vətəndaşların müraciətlərinə baxılması işinin yaxşılaşdırılmasına dair", "Fərdi yaşayış evinin tikintisi üçün hərrac və ya müsabiqədən kənar qaydada torpaq sahələrinin mülkiyyətə ayrılması ilə bağlı", "Yerli vergi və ödənişlərin yığılması, əmlak vergisinin hesablanması, subvensiyaların alınması və digər məsələlərlə bağlı qəbul edilmiş yeni qanunlara dair" və digər bu kimi mövzularda son 5 ildə 19-a yaxın metodik vəsait hazırlanaraq bələdiyyələrə göndərilib. Nazirlik tərəfindən bütün bələdiyyələrə kargüzarlıq işinin düzgün qurulmasına köməklik göstərilməsi məqsədilə "Bələdiyyələrdə vətəndaşların müraciətlərinə baxılması işinin və kargüzarlığın təşkilinə dair" və "Bələdiyyələrdə mühasibat uçotunun təşkili" ilə bağlı kitablar paylanılıb.

Suliddin Əliyev deyib ki, Babək rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə təkcə son 5 il ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 19 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə metodik köməkliklər göstərilib. Nazirlik tərəfindən görülən işlərə, keçirilən bu qədər maarifləndirici tədbirlərə, verilmiş tövsiyə və təkliflərə baxmayaraq, hələ də rayon üzrə bələdiyyələrin fəaliyyətində nöqsanlar və çatışmazlıqlar qalmaqdadır.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən, hər bir bələdiyyə qəbul etdiyi aktların bir surətini inzibati nəzarət qaydasında baxılması üçün həmin aktları qəbul etdikləri andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Bu sahədə muxtar respublika ərazisindəki bələdiyyələrin əksəriyyəti qanunvericiliyin tələblərini pozur. Bütün bunların nəticəsidir ki, son 5 ildə muxtar respublika üzrə 42 bələdiyyə sədri haqqında inzibati tənbeh tədbiri görülüb ki, bunlardan 8-i Babək rayonunun ərazisindəki bələdiyyə barədə olub. Növbəti illər ərzində də belə hallara yol verən bələdiyyələr haqqında tədbirlərin görülməsi davam etdiriləcək.

Tədbirə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev yekun vurub.

**Səbuhi HÜSEYNOV**

# Qədim Naxçıvanın ecazkar təbiəti İsrailin ölkəmizdəki səfirini heyran etdi

***İsrailin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rafael Harpaz muxtar respublikaya səfəri çərçivəsində mayın 14-də “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi və Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində yerləşən Batabat yaylağı ilə tanış oldu.***



“Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində qonağa məlumat verildi ki, ziyarətgahın adı “mağara sahibləri” mənasını verir. Müqəddəs “Qurani-Kərim”də “Əl-Kəhf” surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatmaqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Həmin hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb.

Əshabi-Kəhflə bağlı rəvayətləri maraqla dinləyən Rafael Harpaz ziyarətgahı gəzərək parçalanan nəhəng dağı heyranlıqla seyr etdi.

Füsunkar gözəlliyi ilə daim diqqətləri özünə cəlb edən Batabat yaylağına gələn qonaq dünyada nadir rast gəlinən təbiət mənzərələrinə maraqla baxdı. Qalın meşəsi, bitki və canlılarla zəngin biomüxtəlifliyi, bir-biri ilə növbələşən landşaft mənzərələri, saniyələr sonra adamın əllərini donduran Zorbulaq, üzən ada, Fərhad evi qonaqda zəngin təəssürat yaratdı.

Səfirə Şahbuz Dövlət Təbiət Qoruğu barədə ətraflı məlumat verilərək bildirildi ki, ulu öndər Heydər Əliyev ekologiyanın qorunmasına, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin daha da inkişafına xüsusi diqqət yetirib. Məhz ümummilli liderin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə ərazisi 12 min 131 hektar olan Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, ərazisi 3139 hektar olan Şahbuz Dövlət Təbiət Qoruğu yaradılıb. Batabat yaylağı da Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində yerləşir. Bu yerlər Şahbuzun təbiətinə, onun bənzərsiz landşaftına xas olan unikal təbiət abidələri ilə zəngindir.

Qeyd olundu ki, qədim Naxçıvan torpağı öz təbiət abidələri ilə çox məşhurdur. Bu baxımdan Batabat yaylağı xüsusilə seçilir. Bu məkanda şəfaverici xüsusiyyətlərə malik olan otların, çiçəklərin, ağac və kolların hər birinin insanlar üçün ayrıca bir dəyəri vardır. Oksigenlə zəngin havası, saf suyu və heyranedici təbiət mənzərəsi Batabatın yüzillik tarixi şöhrətini özündə saxlayıb. Müxtəlif torpaq tiplərinin təşəkkül tapdığı ərazidə 2900-dək bitki növünün yayıldığı, 285 növ faunanın məskunlaşdığı barədə məlumatları dinləyən Rafael Harpaz Naxçıvanın ecazkar təbiətinə heyran qaldığını bildirdi.

Batabat Astrofizika Rəsədxanası barədə də səfirə məlumat verilərək bildirildi ki, ərazinin təbii quruluşu və yaradılmış ən müasir yol infrastrukturu burada ciddi elmi araşdırmalara geniş şərait yaradır. Məhz buna görə də Batabat həvəskar turistlərlə bərabər, dünyanın dörd bir yanından gələn peşəkar turistlərin də dəyişməz ünvanına çevrilib. Burada yerləşən Batabat Astrofizika Rəsədxanasında günün istənilən saatında araşdırmalar aparmaq mümkündür. Muxtar respublika ərazisinin astronomik şəraiti normal, səması təmiz və şəffaf olduğundan bu stansiyada Günəşdən başqa bütün göy cisimlərini – planetləri, kometaları, asteroidləri, ulduzları və yaxın qalaktikaları müşahidə və tədqiq etmək mümkündür.

Mayın 14-də İsrailin ölkəmizdəki səfiri Rafael Harpazın Naxçıvana səfəri başa çatıb.

**Rauf ƏLİYEV**

**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü ildə hər il mayın 15-nin “Beynəlxalq Ailə Günü” kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Azərbaycanda bu günün qeyd olunması həm də milli və ailə dəyərlərimizi daha da möhkəmlətmək, adət-ənənələrimizi qorumaq kimi ali məqsədə xidmət edir.**

*15 may Beynəlxalq Ailə Günüdür*

# Muxtar respublikada ailə dəyərləri qorunur

Ailə tarixən xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi mühüm rol oynamışdır. Ailə nikah, qohumluq, ümumi maraq və qarşılıqlı mənəvi məsuliyyətin mövcud olduğu kiçik qrupdur. Başqa sözlə, ailə vahid qayə uğrunda birlikdə var olub çalışan üzvlərin, qohum-əqrəbaların cəmidir, onların yaşayış tərzində ən əhəmiyyətli bir yer tutan təməldir. Sağlam cəmiyyətin, güclü dövlətin formalaşması və inkişafında mühüm vasitə olan ailə insanların bütün yaş dövrlərində ehtiyac duyduqları ən ali dəyərdir.

***“Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır”,*** – deyən ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyi dövrlərində ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirmiş, ailələrin sosial problemlərinin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülmüş, ailə münasibətlərini tənzimləyən zəngin hüquqi baza yaradılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında ailə cəmiyyətin özəyi kimi təsbit edilmiş və dövlətin xüsusi himayəsində olduğu qeyd edilmişdir. Bununla, dövlət ailənin müdafiəsinə, onun sosial quruluşunun və nüfuzunun qorunmasına təminat vermişdir. 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir. Ailə Məcəlləsində ailənin möhkəmləndirilməsi zərurəti, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulması, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyi, ailə üzvlərinin ailə qarşısında məsuliyyəti və onların hüquqlarının maneəsiz həyata keçirilməsi öz əksini tapmışdır. Bundan başqa, ölkəmizdə ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam uşaqların doğulması üçün zəruri şəraitin yaradılmasını nəzərdə tutan, eləcə də məişət zorakılığı hallarının qarşısının alınması məqsədilə də bir sıra qanunlar və dövlət proqramları qəbul edilmişdir.

Ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ailə siyasəti tarixi keçmişimizə, min illərdən süzülüb gəlmiş milli-mənəvi dəyərlərimizə əsaslanır. Bu gün Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar ailələrin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə təminat verir. Ailə dəyərlərinə həmişə böyük həssaslıqla yanaşan dövlət başçısı demişdir: ***“Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və ailə dəyərləri bizim milli dəyərlərimizdir. Xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır”.***

Muxtar respublikamızda da dövlət ailə siyasəti uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və fəaliyyətinin təmin olunması ailə institutunun formalaşdırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlərdəndir. Bu gün Naxçıvan Muxtar Respublikasında 93 min 763 ailə yaşayır. Ailələrin sosial rifahının yaxşılaşdırılması, xüsusilə gənc ailələrin mənzillə təmin olunması məqsədilə müvafiq tədbirlər görülür. ***“İnsan həyatında mənzilin böyük əhəmiyyəti vardır. İnsan sağlamlığının, ailə xoşbəxtliyinin əsas amillərindən biri də məhz budur”,*** – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son 20 ildə muxtar respublikamızda əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 500-ə yaxın ev tikilərək istifadəyə verilmişdir. Bundan başqa, Naxçıvan şəhərində yeni yaşayış kompleksi – “Gənclər şəhərciyi”nin inşa olunması nəticəsində gənc ailələr mənzil sahibi olmuşdur.

Aztəminatlı ailələrə xüsusi diqqət və qayğı ilə yanaşılması muxtar respublikada ailə siyasətinin ana xəttini təşkil edir. Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət orqanlarının nümayəndələri son iki ildə muxtar respublikada yaşayan 200-ə yaxın aztəminatlı ailəyə baş çəkmiş, onların problemlərinin həlli istiqamətində müvafiq işlər görülmüş, ailə üzvləri tibbi müayinədən keçirilmiş, zəruri ehtiyacları ödənilmişdir. Təkcə 2015-ci ilin ilk rübündə muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 853 min 933 manat ünvanlı dövlət sosial yardımı ödənilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” ailələrin rifahının yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Cari ilin ilk rübündə muxtar respublikada 686 yeni iş yeri yaradılmış, yüzlərlə ailə üzvləri daimi işlə təmin olunmuşdur.

Milli dəyərlər və adət-ənənələrin qorunub saxlanması və gələcək nəslə ötürülməsində ailənin böyük rolu vardır. Bu, danılmaz bir faktdır ki, gənc nəsil ailədə necə böyüyürsə, gələcəkdə cəmiyyətdə də tərbiyə aldığı mühitin daşıyıcısı qismində çıxış edir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq muxtar respublikanın şəhər, rayon və kəndlərində müvafiq mövzularda konfranslar, seminarlar, yazı və rəsm müsabiqələri təşkil olunur, kütləvi informasiya vasitələrində sağlam ailənin formalaşması, ailə dəyərləri, uşaqların tərbiyəsi ilə bağlı çıxışlar edilir. Bu sahədə həyata keçirilən maarifləndirici tədbirlərin nəticəsidir ki, muxtar respublikada ailələrin dağılması halları xeyli azalmışdır.

Ailələrin bütövlüyünün açarı ailə dəyərlərinin üstün tutulmasıdır ki, bu da ailənin uzunömürlü olmasına gətirib çıxarır. Naxçıvan Muxtar Respublikasında ailəsini ömrünün sonuna qədər qoruyub saxlayan uzunömürlü xoşbəxt ailələrimiz kifayət qədərdir. Muxtar respublikada belə uzunömürlü ailələrin yubileylərinin qeyd edilməsi artıq bir ənənəyə çevrilmişdir. Hər il uzunömürlü ailələrlə görüşlər keçirilir, onların həyat tərzi gənc ailələrə nümunə kimi təbliğ edilir.

*Muxtar respublikamızda milli dəyərlərimizin əsas hissəsi olan ailə dəyərlərinin qorunub yaşadılması, ailələrin bütövlüyünün möhkəmləndirilməsi istiqamətində bundan sonra da ardıcıl tədbirlər görüləcəkdir.*

# Uzunömürlü ailələrlə gənclərin görüşü keçirilib

***Şərur rayonunun Çomaxtur kənd tam orta məktəbində uzunömürlü ailələrin yeniyetmə və gənclərlə görüşü keçirilib. Dəyirmi masa arxasında keçirilən tədbiri Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.***



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov çıxış edərək bildirib ki, ailə insanların bir-biri ilə qurduğu münasibətlərin ən qədim və unikal formalarından biridir. Yeni nəslin tərbiyə olunmasında ailə əvəzsizdir. Cəmiyyətin formalaşması və inkişafında ailə mühüm vasitə olmaqla yanaşı, insanların bütün yaş dövrlərində ehtiyac duyduğu ən ülvi mühitdir. Ailəni fərqli edən cəhət də məhz budur. Ailələrin uzunömürlü olmasında iki amil mühüm əhəmiyyət kəsb edir. Biri ailələrə dövlət qayğısıdırsa, digəri ailəni quran tərəflərin adət-ənənələrə, milli-mənəvi dəyərlərə bələd olmaqla onu ailə üzvlərinə mənimsətməsidir. Muxtar respublikada yaşayan ailələrə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Bütün bunlar ailələrin uzunömürlü olmasına xidmət edir. Təsadüfi deyil ki, bu gün muxtar respublikamızda evliliklərinin 70 ili tamam olan ailələr çoxdur.

Vurğulanıb ki, bugünkü tədbirin keçirilməsində məqsəd həmin uzunömürlü ailələrin keçdiyi həyat yolunu, ailələrin uzunömürlü olmalarının sirlərini yeniyetmə və gənclərə aşılamaqdır. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, valideyn-övlad münasibətlərinin düzgün qurulması ailələrin uzunömürlü olmalarında əsas şərtdir. Ailəni quran tərəflər bir-birlərini qiymətləndirməyi öyrənməli, nəzakətli olmalı, yalnız yaxşını yadda saxlamalı, pisi unutmalıdırlar. Tərəflər bir-birlərini qısa müddətdə dəyişməyə (özlərinə oxşatmağa) çalışmamalıdırlar. Bundan əlavə, əxlaqa söykənmək ər-arvadın ümdə vəzifəsi olmalıdır. Bütün bu amillər nəzərə alındıqda ailə möhkəm və uzunömürlü olar.

Bildirilib ki, xüsusilə müasir günümüzdə gənclərin üzərlərinə düşən vəzifə bundan ibarət olmalıdır: ailə dəyərlərinin qorunması ötəri maraqlara və dəyərsiz hisslərə deyil, ənənələrə əsaslanmalıdır. Gənclər modernləşən dünyamızda yaşadıqları həyat tərzi ilə ailə institutunun təməllərinin möhkəmliyinin qorunmasına töhfə verməli, özlərinin timsalında ailə modelimizin nüfuzunun artmasına nail olmağa çalışmalıdırlar. Bu zaman ailə dəyərlərimizi möhkəmləndirərək bunun fonunda ailələrimizin bütövlüyünü qoruya, ailə institutumuzu yaşada bilərik.

Tədbirdə uzunömürlü ailələrin üzvləri Abuzər Əliyev və Sənubər Əliyeva, Musa Mehdiyev və Fatma Mehdiyeva çıxış edərək yeniyetmə və gənclərə ailənin bütövlüyünün qorunması haqda tövsiyələr veriblər.

## Xüsusi qayğıya ehtiyacı olan ailəyə baş çəkilib

15 may – Beynəlxalq Ailə Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Culfa rayonunun Əlincə kəndində yaşayan II qrup əlil Qəhrəman Orucovun ailəsi ilə görüşün keçirilməsi ailənin sosial müdafiəsini gücləndirmək məqsədi daşıyıb. Adıçəkilən təşkilatların əməkdaşları aztəminatlı ailənin yaşayış vəziyyəti ilə maraqlanıb, ailənin üzvlərini tibbi müayinədən keçirib, onlara məişət əşyası və ərzaq payı veriblər.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, muxtar respublikada aparılan uğurlu sosial siyasətin əsas məqsədi ailələrin rifah halının yaxşılaşdırmaqdan ibarətdir. Bunun üçün əlverişli şərait yaradılıb, yeni iş yerləri açılıb və əhalinin məşğulluğu təmin edilib, vətəndaşlarımızın gəlirlərinin davamlı və sabit artım tempi formalaşıb. İqtisadi islahatlardan əldə edilən gəlirlər hesabına sosial proqramlar genişləndirilib, nəticə olaraq, əhalinin sosial müdafiəsi daha da gücləndirilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Mətbuata həsr olunan ömür
## (oçerk)



İstedadlı qələm dostum Elman Məmmədovun 65 yaşı ərəfəsində – bu qeydlərimi qələmə alanda muxtar respublikanın ucqar dağ kəndlərindən birində yaşayan bir ziyalı ilə söhbətim yadıma düşdü. Mətbuatı müntəzəm surətdə izləyən həmsöhbətimin mənə ilk sualı bu oldu:

– Elman müəllimi görürsünüzmü?

– Tez-tez görüşürük, – deyə cavab verdim.

– Yaxşı yoldaşdır, yaxşı da qələm sahibi...

Xatirələr məni bir qədər yaxın keçmişə apardı. Mətbuata gəldiyim ilk günlər yadıma düşdü. O günlərdə Səxavət Kəngərli, Elman Məmmədov, mərhum Nurəddin Babayev, Cəfər Əliyev, Maqsud Mahmudov kimi ölkə mətbuatında özlərini təsdiq etdirmiş, yüksək dövlət mükafatlarına layiq görülmüş jurnalistlər qarşıma çıxıblar. Çətin anlarda mənə kömək olublar. Sonralar yaxınlığımız, dostluğumuz başlayıb.

Yaxın günlərin birində Elmanla Səxavət Kəngərlini görməyə getmişdik. Xeyli söhbətləşdik, ötən günləri xatırladıq. Səxavət müəlim qəfildən Elmana bir sual ünvanladı:

– Elman, yəqin ki, altmışı keçmiş olarsan.

Elmanın üzünə təbəssüm qondu:

– 65-i tamamlayıram...

... Yuxarıdakı məqamları təsadüfən xatırlamadım. Mən mətbuata gələndə “Şərurun səsi” qəzetinin redaktoru Elman Məmmədov jurnalistlərin orta nəslinin nümayəndəsi idi. Bu illərdə Elmanın şahidi olduğum ömür yolunu gözlərim önündə canlandırdım, xarakter cizgilərini yadıma salmağa çalışdım. Zahirən çox sakit görünən Elman Məmmədovun daxilən işıqlı, istiqanlı, naxçıvanlıların təbirincə desək, ifallı bir insan olduğunu onu tanıyanların hamısı təsdiq edər. Əhatəsində olduğu jurnalist dostlarına, oxuculara da onu sevdirən bu keyfiyyətlər və yazılarındakı səmimiyyətdir.

Elman Məmmədov Şərur rayonunun Düdəngə kəndində sadə bir kəndli ailəsində dünyaya göz açıb. Uşaqlıq illəri o vaxtlara təsadüf edib ki, xalqımız 1941-1945-ci illər müharibəsinin iqtisadiyyatımıza, sosial həyatımıza vurduğu yaraları sağaltmaqda, ictimai təsərrüfatlar təzə-təzə özünə gəlməkdə idi. O illərdə məktəbyaşlı uşaqlar da dərsdən sonra təsərrüfat işlərində valideynlərinə kömək edirdilər. Elman da onlar sırasında. İllər ötdü, o da orta təhsilini başa vurdu. Tay-tuşlarının hərəsi üz tutdu bir sənət dalınca. Kimisi peşə məktəbinə, kimisi texnikuma, kimisi də ali məktəbə. Elman isə bunlardan imtina etdi. Səbəbini sonralar bildilər: arzusu jurnalist olmaq imiş.

***Öz sözü:*** O vaxtlar belə idi ki, Jurnalistika fakültəsində imtahanlara buraxılmaq üçün istehsalatda ən azı ikiillik iş stajın olmalı, mətbuatda 5-6 yazın çap edilməli və redaksiyadan xasiyyətnamə-zəmanət almalı idin ki, imtahan götürənlər “səndən jurnalist ola bilər” qənaətinə gəlsinlər. Bunlar olmadığına görə o vaxtacan sənədlərimi jurnalistika fakültəsinə verə bilməmişdim. Nəhayət, 1969-cu ildə sənədlərimi Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinin qiyabi şöbəsinə təqdim edə bildim. İmtahanların nəticəsi uğurlu oldu. Məndən daha çox sevinənlər isə nə vaxtsa bu fikrimdən daşındırmağa çalışan atamla anam, bir də seçdiyim və qəlbən bağlandığım sənət yolunda mənə ilk müəllimlik etmiş Çingiz Nağıyev oldu.

***Haşiyə:*** Çingiz Nağıyev özünəməxsus üslubu və dəst-xətti ilə seçilən, gənc qələm sahiblərinə dayaq durmağı həyat amalına çevirmiş bir jurnalist olub. Elman Məmmədovu da redaksiyaya işə o aparıb, Elman müəllim ilk əmək fəaliyyətinə Şərur rayonunda dərc olunan “İşıqlı yol” qəzetinin mətbəəsində texniki işçi kimi başlayıb. İlk yazılarını da Elman o vaxtlar yazıb və Çingiz Nağıyev də ondan köməyini əsirgəməyib.

... Qiyabi təhsil ala-ala rayon qəzetində müxtəlif vəzifələr tutub; ən kiçik vəzifədən başlayaraq redaktor kürsüsünə gəlib çatıb. Düz 23 ildir ki, redaktorluq edir. Bu dövrdə qəzetin zamanın, mənsub olduğu bölgənin aynası funksiyasını yerinə yetirməsi üçün o, bütün imkanlarından istifadə edib; qəzetin ətrafına gənc müxbirlərin cəlbini diqqət mərkəzində saxlayıb, onlara məsləhətlərini əsirgəməyib. Mətbuatın imkanlarından istifadə edərək yaşadığımız dövrün salnaməsini qəzet səhifələrində yaratmaq üçün ciddi səylə çalışıb. Rastlaşdığı neqativ halların aradan qaldırılması üçün qəzetdə tənqidi materialların dərc olunmasından çəkinməyib. Bu gün tam cəsarətlə demək olar ki, “Şərurun səsi” qəzeti muxtar respublikanın bir şəhər və yeddi rayon qəzetinə nümunə gücündədir.

Ömrünün 47 ilə yaxın bir dövrünü jurnalistikaya həsr edən Elmana belə bir sualla müraciət etdim:

– ***Elman Məmmədov üçün jurnalistika...***

– Jurnalistlər gərgin və narahat ömür yaşayan peşə sahibləridir. Mənim fikrimcə, bu, ona görə belədir ki, jurnalist hər hansı bir qəzet materialını hazırlamağa başlayandan yazıb qurtarana qədər həmişə təkcə seçdiyi “obyekti” deyil, bütöv oxucu kütləsini düşünür, özünü bu yazıya, təbii ki, müxtəlif nöqteyi-nəzərdən yanaşacaq oxucuların yerinə qoyur, xəyalən onlarla “söhbət edir”, ən çox isə “eşitdiyi” iradları ürəyinə salır. Sonra qaralmış vərəqləri əzib bir kənara atır, yenidən işləyir, çalışır ki, yazısı jurnalistikanın və oxucunun tələblərinə cavab verə bilsin... Beləcə, ömrünü saatbasaat, günbəgün əridir bu ağ vərəqlər üzərində jurnalist. Nikbinliyini də gizlətmir, bilir ki, yaratdığı yaxşı yazılar cəmiyyət üçün həmişəyaşardır və yaşadıqca müəllifini də yaşadacaqdır. Eyni zamanda illər keçdikcə saralmış hər bir qəzeti vərəqləyən gənc mətbuat işçiləri belə yazılarla öz nəzəri və təcrübi biliklərini artıracaqlar...

* * *

Elman Məmmədov bu illərdə özünə, öz peşəsinə, öz qələminə və vəzifəsinə sadiq qalıb. Heç bir çətinlikdən qorxmayıb. Atdığı addımın sonunda haqqın, ədalətin onu müdafiə edəcəyinə inanıb və belə də olub.

İş otağında səliqə ilə yığdığı müxtəlif qəzetlər bir jurnalist ömrünün səhifələrini ortaya qoyur. Bu səhifələri vərəqlədikcə Elman Məmmədovun qələminin gücünü bir daha görürsən. Jurnalistikanın hansı janrına müraciət etməyib? Xəbərdən tutmuş publisistik yazılara kimi bütün janrlarda özünü təsdiq etdirib. Bu yazılarda ilk olaraq nələri müşahidə edirik? Jurnalist etikasını gözləmək, mətbu sözə hörmət etmək, oxucu marağını ödəmək üçün həyati faktları qələmə almaq, yazılardakı sadə təhkiyə üslubu və oxucu ilə səmimi ünsiyyət.

Yazılarının adlarını çəkmək fikrindən uzağam. Buna ona görə ehtiyac duymuram ki, onlar on deyil, on beş deyil, yüzlərlədir. Və hamısı da qəlbinin səsi ilə qələmə alınıb. Bir məqamı xüsusilə vurğulamaq istəyirəm. Ötən əsrin səksəninci illərinin sonlarında baş verən məlum hadisələr Elman Məmmədovu həm xarakter kimi dostlarına yenidən tanıtdı, həm də onun publisistikasına yeni mövzular daxil etdi. Zamanın diktə etdiyi hadisələr elə gözlənilməzliklərlə dolu idi ki, kimsə yolundan sarpdığını düşünə belə bilmirdi. Bundan istifadə edənlər isə az qala o dövrün “qəhrəmanlarına” çevrilməkdə idilər. Məhz belə məqamda Elman Məmmədov xarakteri və qələmi Şərur rayonunda öz sözünü deməkdən çəkinmədi. Fiziki və mənəvi zərbələr alsa da, yolundan dönmədi, əyilmədi, sınmadı. Çünki Cəfər Məmmədov, Nəriman Nəcəfov, Rafiq Həsənov, Hüseyn Əbdülhüseynov kimi redaktorlarla işləmişdi, onların mətbuatdakı prinsipial mövqelərini, bu mövqedən çıxış edənlərin insanlar qarşısına üzüağ çıxmalarını görmüşdü. Bu gün o dövrə xəyalən ekskurs edən Elman Məmmədov keçib gəldiyi yolda düz mövqe tutduğu üçün özündə daxili – mənəvi rahatlıq tapır, əlinə qələm alan gənclərə də bunu tövsiyə edir.

* * *

... Hərdənbir universitetdə oxuduğu illərə qayıdır Elman Məmmədov. O illərdə tanınmış, hər biri jurnalistikada bir məktəb yaratmış müəllimlərdən dərs alıb. Nurəddin Babayev, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Əliş Nəbili, Əli Fəhmi, Famil Mehdi, Qulu Xəlilov, Nəsir İmanquliyev kimi müəllimlər ona jurnalistikanın sirlərini öyrədiblər. Bu gün də onları minnətdarlıqla xatırlayan Elman söhbətlərinin birində müəllimi, filologiya elmləri doktoru, professor Nurəddin Babayevin tövsiyəsini yada saldı:

– Universiteti qurtaranda müəllimlərlə görüş keçirilirdi. Həmin görüşdə çıxış edən Nurəddin müəllim bizə dedi ki, oxuduğunuz müddətdə sizə yazdığımız qiymətlərlə razılaşmayanlarınız ola bilər. Siz çalışın ki, həyatda öz qiymətinizi alasınız.

Bu gün tam cəsarətlə demək olar ki, Elman Məmmədov həyatda öz qiymətini almış qələm sahiblərindən biridir. Necə deyərlər, ömrünü yelə verməyib. Dəfələrlə müxtəlif istiqamətli jurnalist yazıları müsabiqələrinin qalibi olub, fəxri fərmanlara layiq görülüb, qiymətli hədiyyələrlə mükafatlandırılıb, “Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi”, “Azərbaycan Respublikasının Əməkdar jurnalisti” fəxri adlarını şərəflə daşıyır. Bunun üçün dövlətimizə minnətdarlıq etməyi özünün borcu sayır.

* * *

Həmkarım Elman Məmmədovun bu gün 65 yaşı tamam olur. Onu bu münasibətlə “Şərq qapısı” qəzetinin kollektivi adından təbrik etməyi mən öz üzərimə götürdüm:

**Muxtar MƏMMƏDOV**

# “Naxçıvan” komandası muxtar respublika birinciliyinin qalibi oldu

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş basketbol üzrə muxtar respublika birinciliyinə dünən yekun vurulub.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi birincilikdə muxtar respublikanın şəhər və rayonlarından 8 komanda mübarizə aparıb.

“A” qrupunda “Naxçıvan”, “Şahbuz”, “Şərur” və “Babək”, “B” qrupunda isə “Ordubad”, “Lokomotiv”, “Culfa” və “Sədərək” komandaları yer alıblar. Nəticəyə əsasən, “A” qrupundan “Naxçıvan” və “Babək”, “B” qrupundan isə “Ordubad” və “Culfa” komandaları yarımfinala vəsiqə qazanıblar. Bu mərhələdə daha baxımlı oyun sərgiləyən “Naxçıvan” və “Ordubad” komandaları həlledici qarşılaşmada üz-üzə gəliblər. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşma “Naxçıvan” komandasının qələbəsi ilə yekunlaşıb – 49:29. Turnirin üçüncülük matçında isə Culfa və Babək basketbolçuları üz-üzə gəliblər. Bu görüşdə şans bir qədər culfalıların tərəfində olub – 23:22.

Bununla da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş basketbol üzrə muxtar respublika birinciliyinin qalibi “Naxçıvan” komandası olub.

Üç gün davam edən turnirin qalibləri diplom, basketbol topu, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

# Boksçumuz Meksikada təlim-məşq toplanışındadır

İlk dəfə olaraq Azərbaycanda təşkil olunacaq Birinci Avropa Oyunlarının başlamasına az bir zaman qalıb. “Bakı-2015” Birinci Avropa Oyunlarında çıxış edəcək idmançılar artıq son təlim-məşq toplanışlarını keçirirlər. Azərbaycanı bu mötəbər yarışda təmsil edəcək boks üzrə milli komandamız da Avropa Oyunlarına hazırlıqlarını davam etdirir. Sevindirici haldır ki, ilk Avropa Oyunlarında Naxçıvan boksçusu Tayfur Əliyev də iştirak edəcək. Dəri əlcək sahibimiz hazırda Azərbaycan millisi ilə birgə Meksikanın paytaxtı Mexiko şəhərində təlim-məşq toplanışındadır.

“Avropa Oyunlarına hazırlıqlarımız davam edir. Artıq yarışın başlamasına az bir müddət qalıb və bütün diqqətimizi təlimlərə yönəltmişik. İlk Avropa Oyunlarında tarixə düşmək, uğur qazanmaq üçün əlimdən gələni edəcəyəm. Məqsədim Azərbaycan bayrağını bu mötəbər idman yarışında dalğalandırmaqdır”, – deyən Naxçıvan boksçusu Tayfur Əliyev may ayının 25-dək Meksikada təlim-məşq toplanışında olacaq.

Artıq okeanın o tayında boksçumuz bir neçə sparrinq döyüşü keçirib və rinqi qələbələrlə tərk edib.

**Ceyhun MƏMMƏDOV**

# Növbəti maarifləndirici kurs

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq, Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda növbəti maarifləndirici kurs təşkil edilib.

Mayın 12-də başlayan və yeddi iş günü davam edəcək kursa “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının, Naxçıvan Avtomobil Zavodunun, Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin, “Sirab”, “Əcəmi“ Tikinti-Quraşdırma və “Naxçıvan Tikiş” Açıq Səhmdar cəmiyyətlərinin, “Prestij Naxçıvan Pivəsi”, “Dekor Qrup“, “Ləzzət Qida-Sənaye”, “Ləzzət Biskvit və Şokolad Fabriki”, “Dostluq” və “Bizim Qida” Məhdud Məsuliyyətli cəmiyyətlərinin kadr işləri üzrə, ümumilikdə, 14 mütəxəssisi cəlb edilib.

Kursda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən “Əmək müqaviləsinin bağlanmasının əsasları və qaydaları”, “Əmək müqaviləsinin nümunəvi forması, onun düzgün doldurulması və ona dəyişikliklərin edilməsi qaydaları”, “Əmək müqaviləsinə xitam verilməsinin əsasları və qaydaları”, ”Əmək müqaviləsi üzrə işəgötürən və işçinin hüquq və vəzifələri”, “Əmək münasibətləri zamanı digər sənədləşmə işlərinin qanunamüvafiq həyata keçirilməsi”nə dair, həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Həmkarlar İttifaqları Şurasının və Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri tərəfindən “Əcnəbi vətəndaşlarla əmək müqaviləsinin bağlanması və fərdi icazənin verilməsi qaydası”, “İşçilərin əmək hüquqlarının müdafiəsi”, “İşçilərin istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunmaları” ilə bağlı müvafiq mövzular tədris olunacaq.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

İbrahimov Zülfüqar Səfər oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 387